**AZƏRBAYCAN RESPUBLİKASI ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN KOLLEGİYASI**

# QƏRAR

**№ 3-17/3-5-21/2024**

**Bakı şəhəri** **1 avqust 2024-cü il**

## "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 aprel tarixli 43 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 may tarixli 230s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası

**qərara alır:**

1 Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 1999-cu il 22 yanvar tarixli 1-3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Topoqrafiya, geodeziya və kartoqrafiya istehsalı sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif İxtisas Sorğu Kitabçası"nda (hissə-5-2)", 2005-ci il 15 noyabr tarixli 24-2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bütün sahələr üçün ümumi olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nda, 2017-ci il 20 dekabr tarixli 18-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nda dəyişiklik təsdiq edilsin (əlavə olunur).

2. Nazirliyin Aparatının Hüquq şöbəsinə (G.İsgəndərova) tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə çatdırılmasını təmin etsin.

3. Nazirliyin Aparatının İctimaiyyətlə əlaqələr şöbəsinə (F.Talıbova) tapşırılsın ki, bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra 72 saat müddətində elektron daşıyıcıda mətn faylları formasında rəsmi dərc edilməsini təmin etsin.

4. Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2022-ci il 17 yanvar tarixli 22040001074 nömrəli əmri ilə müəyyən edilmiş vəzifə bölgüsünə əsasən həyata keçirilsin.

**Kollegiyanın sədri** **Sahil Babayev**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 2024-cü il 1 avqust tarixli 3-17/3-5-21/2024 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 1999-cu il 22 yanvar tarixli 1-3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Topoqrafiya, geodeziya və kartoqrafiya istehsalı sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif İxtisas Sorğu Kitabçası"nda (hissə-5-2)", 2005-ci il 15 noyabr tarixli 24-2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bütün sahələr üçün ümumi olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nda, 2017-ci il 20 dekabr tarixli 18-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nda dəyişiklik**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 1999-cu il 22 yanvar tarixli 1-3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Topoqrafiya, geodeziya və kartoqrafiya istehsalı sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif İxtisas Sorğu Kitabçası"nın (hissə-5-2)" "TARİF-İXTİSAS XÜSUSİYYƏTLƏRİ"nin "I.RƏHBƏRLƏR" bölməsinin "DƏSTƏ RƏİSİ (DƏNİZDƏ)" hissənin dördüncü abzasının ikinci cümləsində "əsasən ATM (ali təhsil məktəbləri) texnikum tələbələri və kiçik texnik kursları tələbələrinin düzgün istehsalat təcrübəsi" sözləri "təhsilalanların istehsalat və ya ixtisas üzrə təcrübə" sözləri ilə, ikinci halda "istehsalat təcrübəsi" sözləri "təcrübə" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2005-ci il 15 noyabr tarixli 24-2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bütün sahələr üçün ümumi olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nın "TARİF-İXTİSAS XÜSUSİYYƏTLƏRİ"nin "II. MÜTƏXƏSSİSLƏR" bölməsinin "KADRLAR ÜZRƏ MÜTƏXƏSSİS" hissəsinin birinci abzasının dördüncü cümləsində "tələbə və şagirdlərə istehsalat təcrübəsinin öyrədilməsi işinin təşkilinə dair" sözləri "təhsilalanların istehsalat və ya ixtisas üzrə təcrübələrinin təşkili ilə bağlı" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 2017-ci il 20 dekabr tarixli 18-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası" nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin adı və əməyinin ödəniş dərəcələri diapazonu"nun "V. Orta ixtisas təhsili müəssisələri" bölməsinin "Rəhbərlər" hissəsinin 11-ci sətrində "İstehsalat təcrübəsinin" sözləri "İxtisas üzrə təcrübə" sözləri ilə əvəz edilsin;

3.2. "TARİF-İXTİSAS XÜSUSİYYƏTLƏRİ" üzrə:

3.2.1. "IV. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ"nin "RƏHBƏRLƏR" bölməsi üzrə:

3.2.1.1. "TƏDRİS MƏSƏLƏLƏRİ ÜZRƏ PROREKTOR" hissənin birinci abzasının altıncı cümləsində " istehsalat" sözü "ixtisas üzrə" sözləri ilə əvəz edilsin;

3.2.1.2. "FİLİAL DİREKTORUNUN MÜAVİNİ" hissəsinin birinci abzasının dördüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Tədris prosesinə və tələbələrin ixtisas üzrə təcrübəsinə nəzarət edir";

3.2.1.3."FAKÜLTƏ DEKANININ MÜAVİNİ" hissəsinin birinci abzasının ikinci cümləsində "tədris-istehsalat" sözləri "ixtisas üzrə" sözləri ilə əvəz edilsin;

3.2.1.4. "KAFEDRA MÜDİRİ" hissəsinin birinci abzasının ikinci cümləsində "istehsalat təcrübəsinə" sözləri "ixtisas üzrə təcrübəyə" sözləri ilə əvəz edilsin;

3.2.1.5. "PROFESSOR" hissəsinin birinci abzasının ikinci cümləsində "İstehsalat təcrübəsinə" sözləri "İxtisas üzrə təcrübəyə" sözləri ilə əvəz edilsin;

3.2.1.6. “DOSENT” hissəsinin birinci abzasının birinci cümləsində “istehsalat təcrübəsinə” sözləri “ixtisas üzrə təcrübəyə” sözləri ilə əvəz edilsin;

3.2.1.7. “BAŞ MÜƏLLİM” hissəsinin birinci abzasının birinci cümləsində “istehsalat təcrübəsinə” sözləri “ixtisas üzrə təcrübəyə” sözləri ilə əvəz edilsin;

3.2.1.8. “TƏCRÜBƏ VƏ MƏZUNLARLA İŞ ŞÖBƏSİNİN MÜDİRİ” hissəsinin ikinci abzasında “pedaqoji və istehsalat” sözləri “ixtisas üzrə” sözləri ilə əvəz edilsin;

3.2.2. “V.ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ” nin “RƏHBƏRLƏR” bölməsinin “İSTEHSALAT TƏCRÜBƏSİNİN RƏHBƏRİ” hissəsi üzrə:

3.2.2.1. adında “İSTEHSALAT TƏCRÜBƏSİNİN” sözləri “İXTİSAS ÜZRƏ TƏCRÜBƏ” sözləri ilə əvəz edilsin;

3.2.2.2. birinci abzasın birinci cümləsində “İstehsalat təcrübəsinin” sözləri “İxtisas üzrə təcrübənin” sözləri ilə, “istehsalat” sözü “ixtisas üzrə” sözləri ilə əvəz edilsin;

3.2.2.3. dördüncü, beşinci, altıncı abzaslarda “pedaqoji və ya istehsalat təcrübəsinin” sözləri “ixtisas üzrə təcrübənin” sözləri ilə əvəz edilsin.